**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaş Cavadov Rasim Özbəy oğlunun 26 dekabr 2009-cu il tarixli 189 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində İmişli rayonu, Qaradonlu kənd sakini Cavadov Rasim Özbəy oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, 72 saylı Yardımlı-Masallı seçki dairəsinin 76 və 78 saylı seçki məntəqələrində üzrə seçkilərin nəticələrinin saxtalaşdırıldığını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciətdə göstərilən halların dairə seçki komissiyası tərəfindən müəyyənləşdirilməli olduğu nəzərə alınaraq, müraciət aidiyyəti üzrə araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün 72 saylı Yardımlı-Masallı seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarların qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Cavadov Rasim Özbəy oğlunun 26 dekabr 2009-cu il tarixli 189 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 72 saylı Yardımlı-Masallı seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərarın icrası barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Natiq Məmmədov

| | |
|---|---|
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |